“Sözün yeddi gözəli”

Düşüncələr, təəssüratlar

Bütün zamanlarda xalqın, cəmiyyətin formalaşması və inkişafında, milli düşüncənin yaranması və yenilənməsində ədəbiyyat böyük əhəmiyyət kəsb etmişdir. Yaradıcılığı hər vaxt imzasından öndə olan şair, nasir, ədəbiyyatşünas, publisist, esseist Əli Rza Xələfli də bir qərinədən çoxdur ki, özünün çoxsaylı, çoxçeşidli əsərləri ilə Azərbaycan ədəbiyyatının inkişafına xidmət edir. O, nadir qələm sahiblərindəndir ki, sözün yükünü ədəbi janrların bütün qollarında məsuliyyətlə, uğurla çəkib aparır. Onun yaradıcılığında ədəbi sözün sönük təsviri, tədqiqatın başdansovdu, səthi forması yoxdur. Əsərlərində süni pafos, şişirdilmiş obraz, bayağı şəkildə təsvir olunmuş bir hadisəyə belə rast gəlmək mümkün deyil. Əli Rzanın yaradıcılığı bir ümmandır. Bu ümmana baş vurmaq nə qısa zamana, nə də məhdud çərçivəyə sığan deyil. Onun geniş, əhatəli yaradıcılığı böyük tədqiqat işlərinin predmeti, ədəbi tənqidin ciddi mövzusudur. Bu yazıda məqsədim yazıçının çoxsaylı yaradıcılıq uğurlarından olan “Sözün yeddi gözəli” əsəri barədə təəssüratlarımı bölüşməkdir. Yeddi qadın sənətkarın yaradıcılıq yolunu yeni bir üslubda, ədəbi tənqidin müqayisəli, fərdilik-ümumilik prinsipi ilə, lirik təsvir-detallarla araşdıran, təhlil edən müəllifin tədqiqatı elə ilk oxunuşdan mənə orijinal göründü. Dilinin səlis və rəvanlığı, zənginliyi, obrazlığı ilə cəlbedici olan bu monoqrafik əsər Ə.R.Xələflinin çoxlu sayda əsərləri sırasında yaradıcılıq üfüqlərinin genişliyini, mənəvi aləminin işığını, özəlliyini yeni istiqamətdən ortaya qoydu.

Elmi-ədəbi yaradıcılıqda az sözlə böyük mətləbləri ifadə etmək müəllifdən yüksək zövq, ədəbi konkretlik, kamillik tələb edir. Əli Rza Xələflinin tədqiqat yaradıcılığında dilinin obrazlığı, hiss və duyğuları, həssaslığı sənətə olan sevgisinə söykənir. “Sözün yeddi gözəli”ndə müəllif qəhrəmanların yaradıcılığını, portretlərinin ədəbi cizgilərini sözün qüdrəti, gözəlliyi ilə təhlil müstəvisinə çıxarmışdır. Əsərlə tanışlıqdan aydın oldu ki, yeddi sənətkar xanımın yaradıcılığında fərqlilikləri olduğu kimi, bənzərlikləri də var. Onları birləşdirən oxşar cəhətlər məhz ictimai məzmunlu yazılardı. Amma bu oxşarlığın özündə də üslub, mövzuya yanaşma tərzi, təxəyyül fərdiliyi aydın nəzərə çarpır. Ə.R.Xələfli də onların yaradıcılığında məhz fərqli prinsipləri əsas götürərək ictimai, millibəşəri mövzularda ərsəyə gətirdikləri əsərlərini tədqiq edib. Burda müəllifin seçimi, fikir axıcılığı o qədər cilalıdır ki, sözə sevdalıların hər biri öz ampluasında bir qəhrəman obrazında görünür. Onu da qeyd edək ki, müəllifin sənətkarların yaradıcılığına girişləri onların özlərinin və əsərlərinin mənəvi qatına bələdçilikdən doğan doğmalıqdır.

“Sözün yeddi gözəli”nin ilki olaraq, müəllif filologiya üzrə fəlsəfə doktoru yazıçı-publisist Salatın Əhmədlinin yaradıcılıq yoluna nəzər yetirib. Ə.R.Xələfli onun əsərlərindən bəhs edərkən ilkin olaraq, həm də yazı boyu söz işığını “Heydər Əliyevin dil siyasəti”nə salır. Çünki burda adıçəkilən əsər hər zaman aktuallıq kəsb edən bir məsələyə, xalqın milli kimliyinin, varlığının aynası olan dil məsələsinə həsr olunub. Məlumdur ki, ana dilimizin qorunması və inkişafında ulu öndərin misilsiz xidmətləri olmuşdur. Bu mövzu Salatın xanımın əsərində ciddi, əhatəli şəkildə tədqiq olunmuşdur. Elə bu səbəbdən də Əli Rza əsər üzərində geniş dayanmış, onun milli dəyərlərimizə mənsubluğunu, xalqın həyatında kəsb etdiyi əhəmiyyəti müzakirə obyekti etmişdir. S.Əhmədli ana dilimizlə bağlı fikirlərini “Dilimiz və zövqümüz niyə korlanır” yazısında başqa bir aspektdən davam etdirmişdir. Burada yazıçı qeydləri, müzakirəyə çıxarılan məsələlər Əli Rzanın böyük marağına səbəb olduğundan əsərin geniş təhlilini vermişdir. Ümumiyyətlə, bu mövzu Salatın xanımın yaradıcılığında həmişə açıq olmuşdur. Müəllif sənətkarın yaradıcılığında bir sıra qlobal məsələnin dərinliyinə varmış, onun vətəndaşlıq mövqeyini ədəbi məhsullarının timsalında xarakterizə edərək dəyərləndirmişdir. Ə.R.Xələfli təhlillərində keçidlər edərək S.Əhmədlinin digər əsərlərini də predmet olaraq önə çəkir, yazıçı-publisistin portretini, əsərlərinin ideya-bədii xüsusiyyətlərini sərf-nəzər edir. S.Əhmədlinin yaradıcılıq diapazonu geniş, çoxşaxəli və çoxəhatəlidir. Tədqiqatçı da olduqca məhsuldar olan bu yaradıcılıq laboratoriyasında yeni istiqamətlərdə axtarışlar etməyə, görülən işlərin ədəbi zəhmətini qiymətləndirməyə çalışıb. Görkəmli sənətkarlar haqqında yazdığı əsərləri, toplayıb tərtib etdiyi ədəbi nümunələri və onların hər birinin ayrıca tədqiqi Salatın xanımın elmi təfəkkürünün, ədəbi imkanlarının üfüqlərində aydın bir formada təzahür etmişdir. Əslində hansısa bir klassikin, nüfuzlu bir elm, sənət adamının yaradıcılığını ədəbiyyat tariximizə həkk etdirən tədqiqatçı-alim, sənətkar öz adını da bu tarixin səhifəsinə yazmış olur. Ə.R.Xələflinin tədqiqatları S.Əhmədli haqqında ilk fundamental əsər kimi diqqəti cəlb edir.

Yazıçı qadınların hər birinin yaradıcılıqlarını mənəvi aləminin gözəlliyi və özəlliyi ilə təqdim edən müəllif eyni səmimiyyətlə, həm də fərqli yanaşma ilə poeziyamızda özünün lirik-romantik, psixoloji şeirləri ilə tanınan Xuraman Vəfanın da poetik dünyasına qapı açır. Onun ədəbi ömrünə “Könüllərdə bahar olsa” tanışlığı ilə giriş edən tədqiqatçı bizi sanki bu xanım sənətkarın gözəllik və mükəmməllik mücəssəməsi olan poeziya aləminə səyahətə aparır. Onun sənəti, ziyalılığı, doğal kübarlığı ilə bağlı olan təqdimat söz sənətinin sehrinə düşən işıq təki qəlbimizi nurlandırır. Müəllif əlində, dilində daşıdığı sözün məşəli ilə Xuraman Vəfanın şair obrazını sözün palitrasında təbii canlandıra blib. “Xuraman Vəfanın poeziyası adının mənəvi mahiyyətinə xidmət edən poeziyadır. Yaş ötür, zaman keçir, ancaq o yenə böyük sevgili ruhuna aşiqlik və aşiqanəlik motivlərinə sədaqətini qoruyur”. Elə bu tanışlıq da bizə şairin yaradıcılığının ruhu, lirizmi, əsərlərinin mövzusu haqqında məlumat verir.

Ə.R.Xələfli lirik qəhrəmanın arzularından, poetik ruhundan, bu ruhun yaratdığı ədəbi sərvətdən söz açır. Burda poetik dil, sevgilərin tərcümanı olan gözlər, incə ruh, hisslər, duyğuların ifadəsi olan açmalar, müqayisəli təhlillər tədqiqatçının təhkiyəsində olduqca maraqlı təsir bağışlayır. X.Vəfanın sevgisiylə (lirik “mən”in) Leylinin sevgisi mahiyyət baxımından qarşılaşdırılır, müqayisə olunur. “Heç olmasa Leyli dərdini şama deyir. Amma Xuraman Vəfanın lirik məni heç bunu şama da deyə bilmir. Təkliyinə, tənhalığına sığınır, çünki o, Leylidən fərqli olaraq qeyrisinə öz yanğısının səbəbini açıqlaya bilmir. Onun bircə təskinliyi var - dörd divar içində gizlin-gizlin ağlamaq təskinliyi”. X.Vəfanın “lirik mən”inin klassik poeziyamızın sevgi qəhrəmanı Leyli ilə müqayisəsi Əli Rzanın onun sənətinə verdiyi ən yüksək dəyərdir. X.Vəfanın poeziyası başdan-başa sevgidən yoğrulub. Və təhlil boyunca bu yaradıcılıqdan verilən poetik nümunələr müəllifin düşüncəsində zər təki, inci təki ipə-sapa düzülüb. Təbii ki, bu zinətə rəvac verən də şairin poeziyasıdır.

Ədəbi əsər onda bəşərilik və əbədilik qazanır ki, bütün dövrlərdə insanlar bu əsərlərlə ictimai-şəxsi talelərində bir paralellik görə bilsinlər. Şairin şeirləri də, bu ədəbi məhsulları yüksək zövqlə və özünəxas üslub və səriştə ilə tədqiq-təhlil edən, araşdıran Əli Xələflinin çəmən ətirli, poetik düşüncələri də bu həqiqətin Xuramanın poeziyasında apaydın göründüyünə inandıra bilir oxucunu. Və təkcə poeziyası yox, “ədəbi esseləri, ədəbi-tənqidi görüşlərini ifadə edən publisistik yazıları... ən başlıcası ayrı-ayrı məqamlarda qələmə aldığı Şərq mənəvi mühitinin ən gözəl ənənələrini yaşadan aforistik deyimləri, bitkin hikmət ifadə edən mətnləri” də. Və burda düşünürsən ki, müəllifin tədqiqat obyekti kimi seçdiyi qadın yazarlar sıradan olanlar deyil, sözün tək bir qanadında məskunlaşan deyil, çoxşaxəli və müxtəlif janrlarda qələm işlətməyi bacaran, elə qələmləri ilə də ədəbiyyat tarixinə adlarını yazan sənətkar qadınlardır. Bu ədəbi keyfiyyətlər Ə.Xələflini mövzusuna qəhrəman seçdiyi söz sərraflarının irsini son dərəcə məsuliyyətlə, cəfakeşliklə (nə qədər fitri istedada, yaradıcı təcrübəyə malik olsa belə!) təxəyyül yetikliyi, zənginliyi ilə araşdırmaya sövq edib.

Gülxani Pənah haqqındakı araşdırmasını “Şair, publisist, tədqiqatçı... Gülxani Pənaha məktub”la başlayan müəllif şəxsiyyətin özünü və sözünü layiq olduğu mərtəbədə tanıtmağa çalışıb. Əli Rza sənətkarın özünə, həm də oxucularına ünvanlanan sözünü süni və taftoloji suallardan və fikirlərdən uzaq bir ədəbi ustalıqla bölüşür. “Yəqin ki, Gülxani xanımın sözə səmimi dostluq müasibəti, sözlə ülfəti olmasaydı, bir sözlə, onun daxili aləmində sözə sevgi və eşq olmasaydı, bu qədər ağır iztirablara davam gətirə bilməzdi...” Bu iztirablar yazıçı-ana qəlbində həyatı pöhrədə ikən qırılıb tökülən şəhid balalarımızın, didərgin soydaşlarımızın müsibətini ürəyində daşıdığı dərdləridi. Dildə, təsvirdə heyrətamizlik, yüksək fikir tədqiqatçının sənətkar dünyasına, yazıçı təfəkkürünə, təxəyyülünə güvənidir. Belə olmasaydı müəllif əminliklə “Qarabağ müharibəsinin bədii salnaməsini yaradan müəlliflər arasında Gülxani Pənah çevik düşüncə tərzi ilə fərqlənir... Gülxani Pənah ədəbiyyatşünasdır, qələminin mübarizliyi ilə seçilən publisistdir” deməzdi. Burda tədqiqatçının da ədəbiyyatımız qarşısında xidməti, imzalarını tanısaq da, yaradıcılıqlarının məna yükünə yetərincə bələd olmadığımız sözə sevdalıların irsini araşdıraraq üzə çıxarmasıdır.

Aydındır ki, tədqiqat işi, böyük zəhmət, əziyyət tələb edən sahədir. Tədqiqat əsərinin tədqiqi isə ikiqat zəhmət, geniş təxəyyül imkanına malik olmağı tələb edir. Sözümüz onadır ki, Ə.R.Xələfli ədəbiyyatşünaslıqda tədqiqatın tədqiqinin özünəmənsubluğunun parlaq nümunəsini yarada bilib.

“Tarix yazıçı düşüncəsində” G.Pənahın bütövlükdə yaradıcılığından bəhs edir. O yaradıcılıqdan ki, yaşadığımız faciələrin ədəbiyyat tarixinə yazılmasında G.Pənahın əsərlərinin yeri və rolu danılmazdır. İstər şeirləri, istərsə də hekayələri həyat gerçəkliklərinin, real hadisələrin xarakterik detallarla təsviri müəllifin təhlillərini şərtlədirən amillərdir. G.Pənahın əsərlərinin məna yükü bədii təhkiyənin dili ilə elə təsvir edilir ki, tədqiqatçının özü heyrətini gizlədə bilmir. Çünki yazıçı burda həyat həqiqətlərini bədii həqiqətdə, özü də böyük sənətkarlıqla əks etdirə bilmişdir. Müəllif qeyd edir ki, onun Qarabağ mövzusunda yazdığı şeirlərini “bütövlükdə Qarabağ simfoniyası da adlandırmaq olar” .

Əli Rza Xələflinin sənətkara ünvanlanmış məktubları onların mənəvi aləmi, həyat amalları ilə oxucunu tanış etmək məqsədini daşıyır. Çox zaman da geniş səpkidə işlənmiş məktublar qəhrəmanı bütün cizgiləri, xarakterilə təqdim edir. Şirin xanım Şadimana ünvanlanmış məktub da bu qəbildəndir.

Müəllifin Şirin xanım Şadiman haqqında tədqiqat əsəri üç bölmədə qruplaşdırılıb: 1. Filisterlər arasında (məktub). 2. Bir əfsanə yaşayacaq. 3. Şadimanın qırmızı həqiqətləri. Hər biri olduqca bitkin səslənən bölmələrdə sənətkara, onun ədəbi irsinə münasibətin istiliyini duyduq. Nədən, hardan qaynaqlanır bu istilik? Ə.R.Xələflinin onun ədəbi mühitdə görünən obrazına, yaradıcılığına obyektiv münasibətindən, əsərlərinin daşıdığı xüsusiyyətləri yaşadığı hadisələri ədəbiyyatda əks etdirə bilməsi qüdrətindən qaynaqlanıb. Ş.Şadimanın da yaradıcılığında xalqın yaşadığı milli faciələr, onun istəyi, arzuları başlıca mövzulardandır. O, şairdir, həm də həyat həqiqətlərindən sözünə libas biçən publisistdir. Yaradıcılığının hər iki qolunda yazdığı əsərləri arasında mənəvi yaxınlığı, doğmalığı var. Elə tədqiqatçının da təhlilində bu xüsusiyyət paralellik prizmasından işlənmişdir. Burda müəllifin qəlbi qəhrəmanın itkisindən, faciəsindən alovlandığından sözünü, fikrini yanayana deyir. Bunu ən çox da Şirin xanımın müharibə mövzusunda yazdığı “Balaca, şəhid Farizin hekayəti” əsərindən də görmək mümkün olur. Müəllif uşaqlar üçün ibrətamizlik nümunəsi olan bu əsərdə uşağın doğulduğu yurda, torpağına kiçik qəlbində yaranmış sevgisini, vətənə bağlılığını məharətlə aça bilmişdir.

Müharibə zonasında yaşayan bütün analar kimi, balaca Farizin anasının da qəlbi təlaş içindədir. Balasının həyətdə oynamaq arzusunun qarşısında özünü-sözünü itirib. Teztez atılan düşmən gülləsi onu səksəkə içərisində yaşadır. Amma uşaq heç vəchlə inanmır ki, düşmən balacaları öldürə bilər. Yəqin onlar da uşaqlara qarşı rəhmli, humanist olarlar. Doğma həyətləri, ağacları, bağ-bağatları onu çağırır. Odur ki, anasını yola gətirməyə çalışır.

Ana-bala arasında bu şirin dialoq, balacanın qəlbindəki qönçə arzular nəğmə kimi pıçıl-pıçıl oxunur. Amma uşaq arzularına sarı yürümək istəyinə yetməmiş zavala gəlir. Erməni gülləsi bu günahsız, dinc körpəni qətlə yetirir...

Bizcə, müəllifin şair, publisist Ş.Şadimanın zəngin yaradıcılıq yolundan bəhs edərkən insanı duyğulandıran, düşmənə nifrət hissini gücləndirən bir əsəri üzərində geniş dayanması sənətkarın özünün yaratdığı bədii tabloda özünün də vətənpərvərlik, yurda bağlılıq duyğularını ifadə etməsidir. Müəllifin bu əsəri “qırmızı həqiqətləri” dünyaya yaymaq gücündə olduğundan oxucunu qane etməklə yanaşı, həm də Şirin xanımın əsərlərinə güclü maraq oyadır. Elə ədəbiyyatşünaslığın, ədəbi tənqidin vəzifəsi həm də bundan ibarətdir.

Çöhrəsindən çiçək yağışı kimi axıb-tökülən təbəssümü ilə çoxumuza tanış olan şair, publisist, naşir... Fəridə Ləman Ə.R.Xələflinin Fəridə Ləmana məktubunda məni ən çox duyğulandıran onun səmimiyyətə söykənən nəcib keyfiyyətləri oldu. Bu hissin, duyğunun daşıyıcısı olan söz adamının yazdıqları, heç şübhəsiz, örnəkdir, gələcəyə əmanətdir. O, “təbiətdən, tarixdən” yazanda da avazında, ruhunda bir vətənpərvəlik, insanpərəstlik çağlayır. Bu keyfiyyətlər onun ədəbi-bədii yaradıcılığının, ictimai fəaliyyətinin mayasını təşkil edir. Ə.Xələfli Fəridənin yaradıcılığından böyük ürəklə, məhəbbətlə bəhs edir. Və bu sadəcə bir oxucu fikrini, həmkar münasibətini yox, ədəbiyyatşünasın elmi-nəzəri baxışlarını ifadə edir. F.Ləmanın poeziyasında münasibətini yox, çox uğurlu tapıntı olan “ağ yağış” epiteti fikrinin qüvvətli olmasını şərtləndirir. Tədqiqatçı Fəridənin yaradıcılığından əxz etdiyi mətləblərin insanın psixoloji duyumunu açmaq, cəmiyyətdə mövcud olan hansısa eybəcərliyi, laqeydliyi kəsib atmaq qüdrətində olduğunu bildirir. Onun bu səyləri o qədər zənginliyə, çoxfaktlığa qapı açır ki, bu qabiliyyətə, elmi-ədəbi təfəkkürün sahibinə əhsən deməyə bilmirsən. “Fəridə Ləman “Söndür bu tonqalı” şeiri ilə cəmiyyəti aldadıb özünün iddiaları naminə psixoz bir hala gətirən xalqı kütləyə çevirən nadan siyasətçilərin yandırdığı tonqalın mahiyyətini açıqlayır. Bununla da qara əllə yandırılan tonqalın ətrafında birləşməyin mümkünsüzlüyünü xatırladır. Onun işığı yoxdur, odu, hərarəti yoxdur, tüstüsü, hisi daha çoxdur. Bu tərsinə mənzərə ilə də müəllif istəyinə nail ola bilir, fikrini, sözün obrazın köməyi ilə çatdırır”. Bu, istedadlı şair, yazıçı, zəhmətkeş ədəbiyyatşünasın böyük ürəklə, səylə, bacarıqla təhlilə cəlb etdiyi bir qədər əvvəldə adını çəkdiyimiz şeiri haqqında nəzəri fikirləridir. F.Ləmanın yaradıcılığı haqqında araşdırması başqa elmi mənbələrə, alimlərin fikirlərinə istinadları ilə əsl tədqiqat işi olduğunu göstərir. Əli Rzanın poetik təbiəti ciddi araşdırmasının da ruhunda özünə vətəndaşlıq qazanıb. Əslində belə bir üslubda yazılmış əsəri rahatlıqla oxumaq insana mənəvi rahatlıq gətirir. Müəllifin “Ürəyimi sabahlara açıram” kitabını “sözünə söykənəcək” edən müəllifin ədəbi təxəyyülünə şair ovqatı hopduran fikirlərinə nəzər yetirməmək olmur. “Dağ çiçəklərinin ətri var ürəyi açmaqda. Çayların zümzüməsi var, küləklərin sərinliyi. Titrəyişi var ürək açmaqda. Ürək açmaq insanın xoşbəxtliyidir. Əgər ürəyini açmağa kimsə varsa... Fəridə Ləman bu kimsəni tapa bilib. O, sabahlardır - bizim sabahlarımız, insanların sabahı, insanlığın sabahı...”.

Həmişə “qaynar mühitin içərisində olan” Fəridə Ləmanın yaradıcılığı çoxşaxəli, mövzuları rəngarəngdir. Bu xüsusiyyətləri fikir genişliyində açan, təhlil edən müəllifin tədqiqatından əhatəli bəhs etmək mümkün olmasa da, zənnimizcə, bu ədəbi şəxsiyyətə olan marağı göstərə bilməyə çalışdıq.

Əgər “Mundir altında ürək”də xanım sənətkarın şəkli ilə qarşılaşmasam da, bir sözdən, ifadədən söhbətin köksündə hərbçi ürəyi gəzdirən şair Zəminə Xınalıdan getdiyini dərhal duyardım. Sıra yerinə görə altıncı olan hərbçi şairin yaradıcılığına, ictimai fəaliyyətinə yaddaş körpüsü salan Ə.Xələflinin təqdimatında xanım sənətkar layiq olduğu sözün mərtəbəsində daha parlaq, ləyaqətli, vətənpərvər bir şəxsiyyət kimi görünür. “Zəminə Xınalının mənəvi dünyası haqqında bizim danışmağa kifayət qədər haqqımız var. Çünki onun bir-birinin ardınca çap olunan və eyni zamanda “Kredo” qəzetində işıq üzü görən çox dəyərli əsərləri onu qələm adamı kimi, sənət adamı kimi uca tutmağa, dəyərləndirməyə əsas verir”. Biz də bu təqdimatın işığında Z.Xınalının ictimai-ədəbi fəaliyyətinin bütünlükdə xalqına, millətinə, vətənin igid oğullarına həsr olunduğunu izləyir, izlədikcə də duyğulanır, bu ədəbi məhsulların timsalında ona doğmamız kimi rəğbətimiz yaranır. Xatirələrə dalan müəllifin hələ uşaqlıqdan düşüncəsində formalaşan vətən məhəbbəti, onun azadlığı uğrunda döyüşmək, sinəsini - qələmini sipər etmək sevgisi pöhrə atmışdı. Sözə, əsgər mundirinə rəğbəti də hələ o zamanlardan yaranmışdı. Arzularına, məqsədinə sözünün işığında yol almışdı. Bu gün bu yola nur çiləyən Ə.R.Xələfli onun qeyrətli vətən qızı, sinəsi sözlə dolu qələm sahibi kimi obrazını yaradıb. Tariyel Abbaslının “Zəminə Xınalının yaradıcılığında hərbi vətənpərvərlik” kitabının da ideyasına diqqət çəkən müəllif onun ədəbi-ictimai fəaliyyətində özünə inam və özünə güvənc qazandığının səciyyəsinə yer vermişdir. Amma onun “bir sənətkar olaraq Şəhriyar üslublu, dəyərli bir poemasından, könülləri oxşayan şeirlərindən söz açmaq imkanı olmadı”ğını bildirən müəllif qəm yeməsin, o, Z.Xınalının vətənpərvər şair obrazını yetərincə çəkə bilib.

Bu da “Sözün yeddi gözəli”nin yeddinci sənətkar xanımının, Zərəngiz Dəmirçinin “Qayalı” kitabına işıq salan Ə.Xələflinin eyni həyəcanla, məsuliyyətlə, həm də güclü duyum hissilə qələmə aldığı əsərindən sətirlər: “Zərəngiz Dəmirçinin təsəvvüf ruhlu şeirlərində Yunis İmrə, Dadaloğlu, Qaracaoğlan, Qurbani, Xəstə Qasım kökü də var. Lap çoxdan yaşamış, bizdən çox-çox əvvəl dünyaya gəlib-getmiş o söz sevdalısının təzədən bizim zəmanəmizə gəlişi elə beləcə görünə bilərdi - Zərəngiz Dəmirçi donunda...”. Müəllif Zərəngiz xanımın mənəvi dünyası ilə şəxsiyyəti arasındakı paralelliyi söz-söz, ləçək-ləçək seçib sanballı təqdimatı ilə təhlil mütəvisinə çıxarır. O, Zərəngizin yaradıcılığına dərindən bələd olduğundan tədqiqatçı onun şeirlərinin mahiyyətini bütün gözəlliyi ilə açıqlayır.

Z.Dəmirçi şeirlərində çox qafilliklərə açar salmağa cəhd edir və çox zaman da təxəyyülünün işığında bunlara cavab tapa bilir. Ə.R.Xələfli də məhz onun qarşıya çıxardığı suallara şair sözünün məna qatlarında mübhəm qalan inci fikirləri aşkar edir. Müəllifin onun haqqında qənaətləri o qədər dolğun, tutumlu, xarakterikdir ki, bu fikirlərin özündən gələn səmimiyyət ətrini duymamaq olmur. “Zərəngiz Dəmirçinin yaşı ilə hesablaşmayan, yaşından böyük olan müdrikliyi var...

“Və bizə elə gəlir ki, orijinal üsluba, fərqli təhlil metoduna, zəngin təxəyyülə malik olan Əli Rza Xələfli “Sözün yeddi gözəli”nin davamı olaraq hələ neçə-neçə sözə sevdalıları arayacaq, axtaracaq...

Şəfəq NASİR,
filologiya üzrə fəlsəfə doktoru, yazıçı.